# AZƏRBAYCANDA NEFT STRATEGİYASININ İNKİŞAFI

**X.M.Həşimov, Y.A.Quliyeva**

*Azərbaycan Dövlət İqtisad Universiteti*

Neft sudan yüngül sıxlığı 0,73-0,97 q/sm$^3$ olan parlaq, qonurdan qaraya qədər rəngə çalan, suda həll olmayan, üzvi həllediciIərdə həll olan yanıcı, özlü, xarakterik iyli mayedir. Neftin sabit qaynama temperaturu yoxdur, çünki qaz, maye və bərk karbohidrogenlərin qarışığıdır.




Sxem 1-dən də göründüyü kimi neft sabit qaynama temperaturuna malik deyil. Temperatur artdıqca neftin tərkibində olan hər bir maddə öz qaynama temperaturuna uyğun olaraq buxarlanır.

Dünyada neft çoxlu yataqlardan çıxarılır. Neftin tərkibi fərqli maddələrdən təşkil olunur. Lakin bütün yataqlardakı neftdə parafinlər, tsikloparafinlər və aromatik karbohidrogenlər vardır. Bakı nefti isə naftenlərlə zəngindir. Bu tərkibli neftlər çox keyfiyyətli neft hesab olunur. Naftenlərdə yüksək oktan ədədli karbohidrogenlərdir. Oktan ədədi aşağıda göstərilən sırada artır:

Alkanlar → Alkenlər → Tsikloalkanlar → İzoalkanlar → aromatik karbo-hidrogenlər

Azərbaycanda xam neftin çıxarılması lap qədim dövrlərdən başlanır. Abşeron yarımadasında neft çıxarılması VIII əsrdən başlayır. Tarixçilər Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu yazmışlar. Marko Polo (İtalya) XIII-XIV əsrlərdə Bakı neftinin azərbaycana yaxın ölkələrə aparılması, alman diplomatı və səyyahı Adam Oleari Bakıdakı neft quyuları, neftin başqa ölkələrə aparılması haqqında, nefdən gələn illik gəlir haqqında fikir söyləmişlər. Abşeronda XVI əsrin əsrin əvvəllərində 500-ə qədər neft “yuvası”

neft "quyusu" var idi. Həmin vaxtlar neft torpağın üst qatlarından çıxarıldığından çıxarılan yer "yuva" və ya "çala" adlandırılırdı. 500 "yuva" dan həm "qara" həm də "ağ" neft çıxarılırdı. Quyunun dərinliyi 27m-ə çatırdı-daşla hörülür, ağac ilə bərkidilir. Kustar üsulla bərkidilmə aparıldığından qəzalar tez-tez olurdu.

Qasım bəy Mənsurbətov 1798-ci ildə Bibiheybət ərazisində sahildən 18m və 30m aralı 2 neft quyusu vurmuşdu. Hacı Zeynalabdin Tağıyevin XX əsrin əvvəllərində yaratdığı neft firması əsrin sonunda Azərbaycanda böyük müəssisələrə çevrildi. İlk səhmdar cəmiyyət Şəmsi Əsədullayev tərəfindən XX əsrin əvvəllərində yaradılmışdı. Bu sonralar "Ş. Əsədullayev cəmiyyəti" adlanırdı. Bu cəmiyyət Suraxanı, Sabunçu və Ramanada 37 qazma buruğuna, neftayırma, mexaniki zavodlara və s. malik idi. İllik istehsalı 2 min rubla çatan Murtuza Muxtarovun zavodları idi. Abşeronda 1908-1910 –cu illərdə 60 azərbaycanlı sahibkar fəaliyyət göstərirdi, onların ixtiyarında 80 şirkət var idi. Çox acınacaqlı hal bu idi ki, 1913-1914-cü illərdə neft istehsalı ilə məşğul olan 165 neft firmasından 48-i, yəni 30% azərbaycanlı sahibkara məxsus idi. Bu isə o deməkdir ki, 70% neftimiz bizim deyildi.

Azərbaycanlı sahibkarlar neftdə əldə edilən vəsait hesabına başqa istehsal sahələrində də aparıcı mövqe tuturdular.

Respublikamızda neft sənayesinin inkişaf strategiyasın bir neçə dövrə ayırmaq olar.

**I dövr:** Mexaniki üsulla yazılmış quyulardan neft çıxarılması ilə başlanır. Bu dövr Azərbaycanda Sovet Hakimiyyəti qurulmasına qədər yəni 1920-ci ilə qədər davam edir. Bibiheybət və Balaxanı yataqlarında mexaniki üsulla qazılmış quyulardan sənaye əhəmiyyətli neft alınmışdır. Bu il Azərbaycanda neft sənayesinin inkişafının başlanğıcı oldu. Sahildən 30 m aralıda qazılmış quyudan Bibiheybətdə 1803-cü ildə dünyada ilk dəfə dənizdən neft çıxarılmışdır.

Neft strategi əhəmiyyətli məhsul olduğundan hasilat artdıqca neft sənayesinin infrastrukturu, emalı inkişaf etməyə başladı.1871-ci ildə ilk dəfə Balaxanı-Sabunçu-Ramana yatağı sənaye üsulu ilə işlənilməyə başladı. Bakıda ilk dəfə Səhmdar neft şirkəti yaradıldı.

1873-cü ildə İsveçli Robert Nobel Bakıya gəldi.1876-cı ildə isə Nobel qardaşları neft şirkətinin Bakı şöbəsi yaradıldı. Neft sənayesində fəaliyyət göstərən 167 sahibkarın 29,8%-i 49-u azərbaycanlı idi. H.Z. Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Musa Nağıyev, Şəmsi Əsədullayev, Seyid Mirbabayev və başqa neft milyonçuları neft sənayesinin inkişafında böyük rol oynamışlar. 1880-ci illərdə Bakıda 200-ə yaxın neftayırma zavodu fəaliyyət göstərirdi. Bu dövrdə keçirilən dünya sərgilərində- Paris(1878), London (1886), Brüsseldə (1897) yüksək qiymətləndirilmişdir. 12 km uzunluğunda Balaxanı-Bakı neft kəməri o dövrki Rusiyada ilkə imza atdı. Bu cür kəmərlər 1998-ci ilə qədər 230 km uzunluğunda çəkilmişdi. Həmin kəmərlərlə 1 milyon ton neft nəql edildi.

O dövrdə Azərbaycanda neft hasilatı ən çox 1901-ci ildə olmuşdur 11 milyon ton. Bu isə o dövrdə dünyada çıxarılan neftin yarısı qədər idi-50%.




Həmin dövrlərdə böyük rus alimi D.İ.Mendeleyev Bakı-Batumi neft kəmərinin çəkilişini təkif etdi 1907-ci ildə başa çatan bu kəmərin uzunluğu 833 km borunun diametri 200 mm idi. 1917-ci ildə Neft hasilatının 50%-i xarici inhisarlara məxsus idi. I Dünya müharibəsi illərində Bakı-Batumi neft kəməri işləmirdi.1918-ci ildə yenidən bərpa olundu.

**II dövr:** 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti bərqərar oldu. Bütün sahələrdə olduğu kimi neft sənayesinin bütün strukturları milliləşdirildi. Bu dövr 1949-cu ildə "Neft daşları" yatağının istismarınadək olan dövrü əhatə edir.1921-ci ildə milliləşdirildikdən sonrakı vaxtlarda neft hasilatı 2,4 milyon ton oldu.1928-ci ildə neft hasilatı 1913-cü ildəki səviyyəyə çatdırılaraq 7,7 milyon ton oldu 70% -dən çoxu Azərbaycanın payına düşürdü. 1939-cu ildə ikinci Dünya müharibəsi başlandı. Bundan bir il sonra neft hasilatı 22,2 mln tona çatdırldı. Bu qədər neftin çıxarılması neft maşınqayırma sənayesinin yaranması və inkişafı ilə yanaşı gedirdi. Turbin üsulu ilə Bayılda 2 min metr dərinlikdə Fraş üsulu ilə quyular qazıldı. Bu maili quyular neft yerin səthinə çıxana qədər təzyiqi xeyli aşağı salır başqa sözlə nefti borulara doldurmaq asan olur. Həmin il neft çıxarılması 23,6 milyon tona çatdırıldı. Bu isə bütövlükdə Sovetlər İttifaqında çıxarılan neftin 76%-i demək idi. Yəni hər yüz tankın və 100 təyyarənin 76-sı Bakı neftinin məhsulun istifadə edirdi. 1941-1945-ci illərdə Azərbaycan Sovetlər İttifaqına 75 milyon tondan çox neft verdi. Müharibə dövründə Almanların Bakını tutmaq planı var idi. Ona görə də neftin çıxarılmasında istifadə olunan avadanlıqların

şərqə köçürülməsi nəticəsində neft hasilatı azalaraq 11,1 mln ton oldu. Bu isə işçi qüvvəsinin və mütəxəssislərin müharibədə iştirak etməsi ilə əlaqədar idi.

1945-ci ildə müharibə qurtardıqdan sonra neft sənayesini inkişaf etdirmək məqsədi ilə neft sənayesi texniki və təşkilatı cəhətdən yenidən qurulmağa başlandı. 1949-cu il noyabrın 7-də sahildən 40 km, Bakıdan 100 km aralıda "Neft daşları" ndan neft çıxarılmağa başlandı. Azərbaycanda çıxarılan neftin 2/3 hissəsi dənizdən çıxarılır.

**III dövr:** Bu dövr 19 ili əhatə edir 1950-1969. Bu dövrdə neftçıxarmanın infrastrukturu inkişaf etdirilmiş Abşeron yarımadasının quru sahəsində bir sıra neft yataqları tapılıb, istifadəyə verilmişdir- Kirovdağ, Misovdağ, Kursəngi, Qarabağlı, Qalmaz, Qarabağ və s.

Ən çox "Neft daşları"nın, bir çox başqa yataqların fəal sürətdə işlənilməsi və istismarı aparılmışdı. Dünyada ilk dəfə suda estakada üzərində dəniz mədənləri tikilməyə başladı. Mühəndis və neftçilərin 6 nəfəri SSRİ Dövlət mükafatı,7 nəfəri isə Sosialist əməyi Qəhrəmanı adına layiq görüldü.

Xatırlatmışdıq ki, 1940-cı ildə neft hasilatı 22,2 milyon ton olmuşdur.1966-cı ildə hasilat 21,7 milyon ton oldu.

**IV dövr:** 1969-cu ilin iyul plenimunda ümummilli liderimiz Heydər Əliyev azərbaycan KP MK-nın birinci katibi seçildi. İqtisadiyyatın bütün sahələrində sürətli və dinamik inkişaf baş verdi. Buna görə də IV dövr 1969-cu ildən başlayır. Keçmiş Sovetlər birliyində Xəzər dənizinin bütün sahələrində geoloji kəşfiyyat, qazma işlənilmə, istismar sahələri yaradıldı- yeni avadanlıqların istifadə olunması nəticəsində neft hasilatı artdı- "Xəzərdənizqaz" kəşfiyyat, qazma idarəsi yaradıldı. Həmin dövrə qədər 40m dərinliyində neft çıxarmağa imkan verən qurğular var idi. Tarixdə ilk dəfə Kür sahillərindən Tərsdəllər, Muradxanlıda neft vulkanik suxurlardan çıxarıldı.

Həmin dövrdə dənizin 70m dərinliyində qazma işlərinə başlandı. Sonradan isə 200m dərinlikdə kəşfiyyat aparan "Şelf" tipli qurğular yaradıldı. Səkkiz yeni neft və qaz yatağı kəşf edildi, neft ehtiyatları 2 dəfə artdı. Sonralar üzən qazma qurğuları yaradıldı. Bu üzən qurğuların sayı 11-ə çatdırıldı. Üzən qurğuların sayəsində "Günəşli", "Çıraq", "Azəri" yataqları kəşf edildi. Neft və qaz hasilatı 27,1mln tondan çox oldu. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə həmin qurğuların sayəsində neft hasılatı 50mln tonda ola bilərdi. Uzaqgörən milli liderimiz Sovetlər İttifaqının rəhbərliyinin təkidinə baxmayaraq bunu etmədi. Həmin neft müstəqillik illərində çıxarıldı. Ulu öndərimiz yazırdı: "Azərbaycan öz milli neft strategiyası və kansepsiyaslnl həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir".

Məhz milli liderimizin təşəbbüsü ilə 5 nəfər neftçiyə Sosialist Əməyi Qəhrəmanı adı verildi. 1979-cu ildə 450 min ABŞ dolları məbləğində Dərin Dəniz

Özülləri zavodunun əsası qoyuldu, 1985-ci ildə istifadəyə verildi.

Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin 2001-ci il, Yeni əsr və üçüncü münasibətilə Azərbaycan xalqına müraciəti

**V dövr:** 1990-cı illərdə Sovetlər birliyi dağılmağa başladı.1991-ci ildən başlayaraq Azərbaycanda yeni milli xalqa xidmət edən neft strategiyası yaradıldı. Bu misilsiz strategiyanın banisi onun sürətli inkişafını təmin edən ümummilli liderimiz Heydər Əliyev oldu. Həmin dövr neft sənayesi böhran vəziyyətdə idi. Əsas avadanlıqlar dağılmışdı. Büdcədə demək olar ki, vəsait yoxuydu. Buna görə ulu öndərimiz dünyanın neftdə ixtisaslaşmış neft şirkətlərini Azərbaycana cəlb etdi. Azərbaycan neftinin çıxarılmasını və istismarını həyata keçirən 7 ölkənin 11 neft şirkəti ilə 1994-ce sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Çıxarıla bilən neft ehtiyatı 511 mln ton, 2006-cı ildə 924 mln ton olduğu müəyyənləşmişdir. 80% gəlir Azərbaycan üçün, 20% gəlir isə sərmayədarlara məxsus idi. Sonrada 12 ölkənin müqaviləyə qoşulması nəticəsində neftin çıxarılmasında iştirak edən dövlətlərin sayı 19-a çatdı. Müqavilənin işlənməsi ilə əlaqədar Azərbaycan böhranda çıxdı. Azərbaycanın kəndləri və şəhərləri yeni yaraşıqlı görkəm aldı. Respublikamız Cənubi qafqazın ən inkişaf etmiş ölkəsinə çevrildi. 1997-2005-ci illərdə 10,5 mild $m^3$ qaz 48,3 mln ton neft çıxarıldı. Bakı-Novarossiysk neft kəməri 1997-ci ildə əsaslı təmirdən sonra istifadəyə verildi. 1999-cu ildə isə Bakı-Subsa neft kəməri əsaslı təmirdən sonra yenidən istifadəyə verildi. Bu kəmərlə 2006-cı ilədək 59,8 milyon ton neft qonşu dövlətlərə göndərildi. 2000-ci illərdən başlayaraq neft hasilatı hər il ardıcıl olaraq artdı, 2005-ci ildə isə 22,2 mln tona çatdı.

"Dədə-Qorqud " qazma qurğusu ilə 50-720m dərinlikdə 7620m-dək quyu qazmaq olur. 2005-ci ildən sonra 6 kəşfiyyat quyusu qazılmış neft ehtiyatı 80%-dək artmışdır.



2006-cı ildə Bakı-Tiblisi Ceyhan neft kəməri istifadəyə verildi. Uzunluğu 1768 km, maya dəyəri 2,95 milyard dollardır, diametri 1007mm-dir, neftötürmə qabiliyyəti ildə 50 milyon tondur.

**VI dövr:** Məlumdur ki, "Əsrin müqaviləsi 1994-cü il sentyabr ayında imzalanmışdır". 2017-ci ilin sentyabrında "əsrin kontaktı" nın uzadılması 2050-i ilə qədər saziş imzalanmışdır. Elə ona görə də VI dövr 2017-ci ilin sentyabrından başlanır.

Azərbaycanda 2 milyard ton neft çıxarılması ilə əlaqədar 2017-ci il noyabrın 8-də təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak və çıxış etmişdir. 1971-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə 1 milyard ton neft hasilatı ilə əlaqədar təntənəli mərasim keçirilmişdi.

Bir çox ölkələrin zəngin neft yataqları var. Ancaq ölkələr səfalət içindədir, yoxsullq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır. Bunu hər kəs bilməlidir.

Demək istəyirəm ki, 2 milyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə,onun 460 milyon tonu isə konsersium tərəfindən hasil edilib.

Kontraktın 2050-ci ilə qədər uzadılması nəticəsində Azərbaycana 3,6 milyard dollar bonus şəkildə veriləcəkdir. Bölgü belədir: neft şirkətinin payı 11%-dən 25%-ə qaldırılıb. Mənfəət neftinin 75%-i 2050-ci ilə qədər Azərbaycanda qalacaq. Bundan sonra Azərbaycanda olan neft ehtiyatı 2 milyard tondur.

## İstifadə edilmiş ədəbiyyat:

1. Müşfiq Atakişiyev. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş. Bakı, 2004
2. Zahid Abdullayev: Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı, 2007
3. İ.Əliyev və A.Muradverdiyev. Azərbaycan nefti dünya siyasətində. Azərbaycan nəşriyyatı, 1997
4. Daniel Yergin. Neft fəlsəfəsi. Bakı, 2006
5. Heydər Əliyevin neft strategiyası Azərbaycanın müstəqilliyi naminə Azərbaycan Respublikasının prezidentinin katibliyi. Bakı, 2001
6. Mendeleev D.İ. Bakinskoe neftnnoe delo.1886

***Х.М.Гашимов, Ю.А.Кулиев, Е.А. Кулиева***

**Развитие нефтяной стратегии в Азербайджане**

**РЕЗЮМЕ**

В статье отражены несколько периодов нефтяной промышленности Республики. С увеличением добычи нефти, что является стратегически важным продуктом, инфраструктура нефтяной промышленности и перспективы ее развития широко описаны. Период после войны и вклад в нефтяную промышленность в период правления Национального лидера, возрождение нефтяной эры и историческое событие Контракта века были отражены в хронологическом порядке.

***X.M.Hasimov, Y.A.Quliyev, Y.A.Quliyeva***

**Development of oil strategy in Azerbaijan**

**SUMMARY**

The article outlines several periods of the oil industry of the Republic. The oil industry's infrastructure and its development prospects are widely depicted by the increase in oil production, which is a strategically important product. The post-war period and contributions to the oil industry during the rule of the National Leader, the revival of the oil era, and the historical event of the Century Contract were reflected in chronological order.

**Açar sözlər:** neft, yataqlar, naftenlər, neft sənayesi, hasilat, neft quyuları, Əsrin Müqaviləsi

**Ключевые слова:** нефть, месторождения, нафтены, нефтяная промышленность, добыча, нефтяные скважины, Контракт Века

**Key words:** oil, fields, naphtha, oil industry, extraction, oil wells, Contract of the Century.